# Azərbaycanda uşaq hüquqlarına dövlət tərəfindən təminat verilir

Noyabrın 18-də Milli Məclisdə Uşaqların zorakılıqdan müdafiəsi gününə həsr olunmuş "dəyirmi masa" keçirilib. Tədbiri Avropa Şurası Parlament Assambleyasında uşaq zorakılığına qarşı mübarizə sahəsində Azərbaycan üzrə baş məruzəçi, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva açaraq bildirib ki, uşaqların təhlükəsiz, sağlam mühitdə yaşaması və hərtərəfli inkişaf etməsi hər bir dövlətin, eyni zamanda hər bir insanın mənəvi və vətəndaş borcudur. Təəssüflər olsun ki, bugünkü narahat dünyada bunları təmin etmək bəzi dövlətlər üçün qeyri-mümkündür.

S.Fətəliyeva qeyd edib ki, AŞ Nazirlər Komitəsi tərəfindən təsis edilmiş 18 noyabr Avropa Uşaqların cinsi zorakılıqdan və cinsi istismardan müdafiəsi günü məhz ilk dəfə AŞ üzv ölkələrində, həmçinin Azərbaycanda qeyd olunur. Digər əlamətdar tarix isə noyabrın 20 -də "Uşaq Hüquqları Konvensiyası"nın qəbul edilməsi günüdür. Uşaq hüquqlarının müdafiəsi sahəsində qəbul olunmuş beynəlxalq və dövlətdaxili sənədlərin hazırlanmasında baza sənədi rolunu oynayan BMT-nin 1959-cu il tarixli "Uşaq Hüquqları Bəyannaməsi", daha sonra 1989-cu il tarixli "Uşaq Hüquqları Konvensiyası" qəbul edilib.

Qeyd olunub ki, Azərbaycanda da Konvensiyanın əsas prinsipləri dövlət siyasəti səviyyəsində tanınır, tətbiq edilir və daim təkmilləşir. Azərbaycan Respublikasının Konstitusiyasında uşaqların hüquqlarının müdafiəsinə dövlət tərəfindən təminat verilir.

Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli uşaq problemlərinin hər zaman gündəmdə olduğunu deyib. O, parlamentin Sosial siyasət komitəsində bu istiqamətdə daim müzakirələr aparıldığını, sözügedən sahəyə ölkə rəhbərliyi tərəfindən yüksək diqqət və qayğı göstərildiyini qeyd edib. H.Rəcəbli bildirib ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan uşaq hüquqlarının pozulmasından əziyyət çəkib. Onun sözlərinə görə bir milyon qaçqın və məcburi köçkünün üçdəbiri uşaqlardır. 200 minə qədər qaçqın və məcburi köçkün uşaqların çadırda yaşaması uşaq zorakılığının nümunəsidir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri və Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, uşağa hörmət etməyən dövlət başqa dövlətlərə və qurumlara da hörmət edə bilməz. O, qeyd edib ki, dövlətin gücü onun zəifə qarşı münasibətindən formalaşır. Cəmiyyətdə ən zəif təbəqə isə uşaq və əlil insanlardır. Bu gün Azərbaycanda bu istiqamətdə çox böyük işlər həyata keçirilib və davam etdirilir. Ölkə rəhbərliyi bu sahəni daim diqqət mərkəzində saxlayır.



Tədbirdə iştirak edən Avropa Şurasının Bakı ofisinin rəhbəri Draqana Filipoviç isə AŞ PA-nın "Hər beş uşaqdan biri" kampaniyasının önəmindən danışıb. O, Avropa Şurasının bu sahədə ciddi addımlar atdığını bildirib. D. Filipoviç cəmiyyətdə oğlan və qızlara fərq qoyulmasının da aradan qaldırılmalı olduğunu qeyd edib. Avropa Şurasının rəsmisi uşaqların çox zaman yaxın adamları tərəfindən zorakılıqla üzləşdiyini, bu problemi deyə bilmədiklərini vurğulayıb. O, bu sahədə dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının qarşılıqlı əməkdaşlığının vacibliyini bildirib.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva hər bir ölkənin gələcək inkişafı üçün bu sahəyə xüsusi diqqət yetirməli olduğunu vurğulayıb. O, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər aparıldığını deyib. A.Sofiyeva erkən nikahın fəsadlarından, uşaq zorakılığının qarşısının alınması üçün zəruri tədbirlərin görülməsindən söz açıb.

Daxili İşlər Nazirliyinin idarə rəisi Adıgözəl Adıgözəlov müstəqillik əldə etdikdən sonra Azərbaycanda uşaq hüquqları sahəsində böyük işlər həyata keçirildiyini, qabaqcıl ölkələrin təcrübəsindən yararlanıldığını deyib. O, bu sahədə daxili işlər orqanlarının üzərinə də böyük məsuliyyət düşdüyünü qeyd edib. Vurğulayıb ki, daxili işlər orqanlarının əməkdaşları hər il 50-60 mindən çox yuxarı sinif şagirdləri ilə maarifləndirici söhbətlər aparırlar. 2015-ci ilin 9 ayı ərzində uşaqlara qarşı 470 cinayət qeydə alınıb ki, bunun 133-ü zorakılıq faktıdır. Onlardan 7-i məişət zəminində baş verib. Sözügedən müddətdə 41 erkən nikahdan 15-ə cinayət işi qaldırılıb. O, qeyd edib ki, bu sahədə valideynlərin üzərinə böyük məsuliyyət düşür. Erkən nikahın özü də uşaq zorakılığının bir növüdür.

"Dəyirmi masa"da iştirak edən digər rəsmi şəxslər və QHT rəhbərləri də çıxışlarında uşaq zorakılığının qarşısının alınması istiqamətində tədbirlərin davam etdirilməsini vacib biliblər.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***